İMANIN RÜKUNLARI

3

الإيمان بالكتب

KİTABLARA İMAN

Şeyx

Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri

Tərcümə edən: İlqar Eyvazoğlu

Azərbaycan dili

اللغة الأذرية

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

İMANIN RÜKUNLARI:
KİTABLARA İMAN

Rəbbimiz olan Allahı necə tanıya bilərik?
Onun bizə əmr etdiyi kimi ona necə ibadət edə bilərik?
Bizim getməyimizi istədiyi ən doğru yol hansıdır?

Biz bütün bunları səmavi kitablar vasitəsilə bilirik. Bunlar, Uca Allahın Öz elçilərinə nazil etdiyi kəlamları ehtiva edən kitablar və səhifələrdir.

Səmavi kitablara iman imanın altı əsasından biridir

Uca Allah buyurur:

قال تعالى: ﴿يَـٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوٓاْ ءَامِنُواْ بِٱللَّهِ وَرَسُولِهِۦ وَٱلْكِتَـٰبِ ٱلَّذِى نَزَّلَ عَلَىٰ رَسُولِهِۦ وَٱلْكِتَـٰبِ ٱلَّذِىٓ أَنزَلَ مِن قَبْلُ﴾ [النِّسَاء : ١٣٦]

"Ey iman gətirənlər! Allaha, Onun Elçisinə və Elçisinə nazil etdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin!"[1]

Biz iman edirik ki, onların hamısı haqqdır və həqiqətdir. Onlar Uca Allahın kəlamlarıdır. Kimlərə nazil olubsa olanlar üçün orada hidayət, nur və kifayət edən hər bir şey var.[2]

Biz adları qeyd olunanlara, yəni Qurana, Tövrata, İncilə, Zəbura, İbrahim və Musanın səhifələrinə təfərrüatı ilə iman edirik.[3]

---

[1] ən-Nisa surəsi, 136-cı ayə
[2] Əl-İrşəd ilə Sahihul-Etiqad-173
[3] İman, haqiqatuhu va xavarimuhu va nəvaqiduhuində Əhlis-Sunnə vəl-Cəmaa-1/135

Qurani-Kərim bütün əvvəlki kitabları nəsx edir və onlara hökm edir.

Uca Allah buyurur:

قال تعالى: ﴿وَأَنزَلْنَآ إِلَيْكَ ٱلْكِتَـٰبَ بِٱلْحَقِّ مُصَدِّقًا لِّمَا بَيْنَ يَدَيْهِ مِنَ ٱلْكِتَـٰبِ وَمُهَيْمِنًا عَلَيْهِ﴾

[المَائـِدَة : ٤٨]

“Biz sənə, özündən əvvəlki kitabları təsdiqləyən və onları mühafizə edən Kitabı haqq olaraq nazil etdik.”[4]

O kitablarda olan əhkamlardan yalnız səhih olanlarına və Quranın təsdiq etdiklərinə əməl etmək olar. Çünki o kitablarda təhrif və dəyişikliklər var.

Amma Quranın qorunmasına isə Allah zamin durub.

Uca Allah buyurur:

قال تعالى: ﴿إِنَّا نَحْنُ نَزَّلْنَا ٱلذِّكْرَ وَإِنَّا لَهُۥ لَحَـٰفِظُونَ ﴿٩﴾﴾ [الحِجْر : ٩]

“Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq.”[5]

Kitablara imanın bəhrələri vardır:

Allahın qullarına göstədiyi qayğıya görə Allaha şükr etmək. Beləki Allah hər bir qövmə onları doğru yola yönəldən kitab göndərib. Eləcə də bunda olan hikməti bilmək.[6]

---

[4] əl-Maidə surəsi, 48-ci ayə
[5] əl-Hicr surəsi, 9-cu ayə

Qurani-Kərimə imanın bəhrələrindən biri də tilavət edərək, öyrənərək, əməl edib və mənalarını düşünərək ona qayğı göstərməkdir.

Çünki o, açıq-aydın nur, doğru yol, öyüd-nəsihət, xatırlama və sinələrdə olanlara şəfadır.

Uca Allah buyurur:

قال تعالى: ﴿كِتَٰبٌ أَنزَلۡنَٰهُ إِلَيۡكَ مُبَٰرَكٞ لِّيَدَّبَّرُوٓاْ ءَايَٰتِهِۦ وَلِيَتَذَكَّرَ أُوْلُواْ ٱلۡأَلۡبَٰبِ ٢٩﴾

"(Bu) mübarək Kitabı, (insanların) onun ayələrini düşünüb anlaması və ağıl sahiblərinin də ondan ibrət götürməsi üçün sənə nazil etdik."[7]

---

[6] Əqidətul əhli sunnə val Camaa libni Useymin 28
[7] Sad surəsi, 29-cu ayə